# EKSPERT (SATINALMALAR VƏ TƏCHİZAT ÜZRƏ)
# VƏZİFƏSİ ÜZRƏ
# MÖVZULAR

1. Fəaliyyət sahəsinə aid Azərbaycan Respublikasının qüvvədə olan qanunlarını və normativ aktları
2. Azərbaycan Respublikasının "Dövlət Satınalmaları haqqında" Qanunu
3. Əməyin mühafizəsi, təhlükəsizlik texnikası, istehsalat sanitariyası və yanğından mühafizənin qayda və normaları

**1. Satınalma predmetinin ehtimal olunan qiymətini satınalan təşkilat müsabiqə təklifləri zərflərinin açıldığı günədək malgöndərənlərə bildirə bilərmi?**
A) məxfi saxlayır
B) ancaq müsabiqə günü bildirə bilər
C) bildirə bilər
D) müsabiqədən 1gün qabaq bildirə bilər
E) ancaq təkliflər veriləndən sonra bildirə bilər

**2. Hansı göstəricinin müsabiqə elanında (dəvətdə) göstərilməsi lazım deyil?**
A) satınalan təşkilat haqqında məlumat
B) müsabiqə təklifləri zərflərinin açılması vaxtı və yeri
C) ehtimal olunan dəyər
D) müsabiqədə iştirak üçün tələb olunan sənədlər;
E) məlumat almaq üçün əlaqələndirici şəxsin soyadı, elektron ünvanı, telefonu və faks nömrəsi

**3. Hansı hallar müsabiqədən kənar satınalmalar sayılır?**
A) Satınalma əməliyyatının tək və ya yeganə mənbədən həyata keçirilməsi
B) Satınalma əməliyyatının açıq müsabiqə ilə həyata keçirilməsi
C) Satınalma əməliyyatının seçmə müsabiqə ilə həyata keçirilməsi
D) Satınalma əməliyyatının Elektron Hərrac metodu ilə həyata keçirilməsi
E) Satınalma əməliyyatının açıq və seçmə müsabiqə ilə həyata keçirilməsi

**4. Malların keyfiyyəti dedikdə hansı amillər nəzərə alınmalıdır?**
A) Texniki spesifikasiya, həyat dövrü (sikli, müddəti), istifadə və istismar xərcləri, qablaşdırma, daşınma, saxlanma
B) Malın bazar qiyməti, qablaşdırılması
C) Malın stantdarta uyğun olması
D) Malların daşınması, saxlanması
E) Malların istismar dövrü

**5. Biznes münasibətlərinin normal qaydası olaraq, hansı hədiyyəni qəbul etmək olar?**
A) 55 (əlli beş) manatdan baha olmamaq şərti ilə təqvim ili ərzində bir dəfə hədiyyəni qəbul etmək olar
B) 100 (yüz) manatdan baha olmamaq şərti ilə təqvim ili ərzində bir dəfə hədiyyəni qəbul etmək olar
C) 55 (əlli beş) manatdan baha olmamaq şərti ilə təqvim ili ərzində iki dəfə hədiyyəni qəbul etmək olar
D) 50 (əlli) manatdan baha olmamaq şərti ilə təqvim ili ərzində bir dəfə hədiyyəni qəbul etmək olar
E) Heç bir hədiyyəni qəbul etmək olmaz

Nümunə

**6. Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı neçə şirkətin olması vacibdir?**

A) Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı 2 şirkətin olması vacibdir

B) Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı 5 şirkətin olması vacibdir

C) Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı 10 şirkətin olması vacibdir

D) Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı 3 şirkətin olması vacibdir

E) Müsabiqəli satınalmalar keçirildikdə iştirakçı siyahısında ən azı 7 şirkətin olması vacibdir

**7. Satınalma prosesi hansı mərhələdən başlanır?**

A) Tələbatın aşkarlanması, malın (işin və xidmətin) həcminin müəyyənləşdirilməsi

B) Müsabiqə təkliflərinin alınması

C) Müsabiqəyə Dəvət Sənədlərinin hazırlanması və göndərilməsi

D) Malgöndərənlərin (Podratçıların) perekvalifikasiyası

E) Satınalma Strategiyasının və Müsabiqə İştirakçıları siyahısının təsdiqi

NÜMUNƏ